# Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1998-ci il 22 oktyabr tarixli 216 nömrəli qərarı ilə təsdiq edilmiş "Su obyektlərindən istirahət və idman üçün istifadə qaydaları haqqında Əsasnamə"də dəyişikliklər edilməsi barədə

AZƏRBAYCAN RESPUBLİKASI NAZİRLƏR KABİNETİNİN QƏRARI

"Balıqçılıq haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının 2014-cü il 27 iyun tarixli 1015-IVQD nömrəli qanununun tətbiqi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 11 avqust tarixli 243 nömrəli fərmanının 1.2-ci bəndinin icrasını təmin etmək məqsədi ilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1998-ci il 22 oktyabr tarixli 216 nömrəli qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu 1998, № 10, maddə 637; 2001, № 10, maddə 663; 2004, № 3, maddə 193; 2005, № 1, maddə 49, № 6, maddə 558; 2006, № 4, maddə 370, № 5, maddə 463, № 9, maddə 822; 2009, № 1, maddə 32; 2012, № 5, maddə 482) ilə təsdiq edilmiş "Su obyektlərindən istirahət və idman üçün istifadə qaydaları haqqında Əsasnamə"də aşağıdakı dəyişikliklər edilsin:

1. 1.5-ci bəndin altıncı abzasında "balıq ovu" sözləri "balıq və digər su bioresurslarının ovu" sözləri ilə əvəz edilsin.

2. 1.7-ci bənddə "təbiəti mühafizə edən" sözləri "ətraf mühiti mühafizə edən" sözləri ilə, "balıq ehtiyatlarını" sözləri "balıq və digər su bioresurslarını" sözləri ilə əvəz edilsin.

3. 2.5-ci bəndin dördüncü abzası aşağıdakı redaksiyada verilsin:

"balıq və digər su bioresurslarının həvəskar ovu;".

4. 2.6.14-cü yarımbəndin on üçüncü abzasında "balıq" sözü "balıq və digər su bioresurslarını" sözləri ilə əvəz edilsin.

5. 2.8-ci bəndin birinci və ikinci abzaslarında, 3.6-cı bənddə "həvəskar balıq ovu" sözləri "balıq və digər su bioresurslarının həvəskar ovu" sözləri ilə, 3.1-ci bəndin üçüncü abzasında və 3.6-cı bənddə "idman-balıq ovu" sözləri "balıq və digər su bioresurslarının idman ovu" sözləri ilə, 3.6-cı bənddə "həvəskar balıq ovu" sözləri "balıq və digər su bioresurslarının ovu" sözləri ilə əvəz edilsin.

6. 3.5.18-ci bəndin yeddinci abzasında "balıq ovunda" sözləri "balıq və digər su bioresurslarının ovunda" sözləri ilə əvəz edilsin.

7. 4.9.5-ci yarımbənddə “təbiəti və balıq ehtiyatlarını mühafizə edən” sözləri “ətraf mühitin mühafizəsinə dövlət nəzarətini və balıq mühafizə xidmətini həyata keçirən” sözləri ilə əvəz edilsin.

**Azərbaycan Respublikasının Baş naziri Artur Rasi-zadə**

Bakı şəhəri, 19 noyabr 2014-cü il
№ 368